


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 46 (23.688)

10 mart 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev iki ölkə arasında parlamentlərarası əlaqələrin də çox uğurla inkişaf etdiyini, İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Prezidenti Rəcəb Təyyib Ərdoğanın, eyni zamanda Türkiyə Böyük Millət Məclisinin rəhbərinin və parlament üzvlərinin də Azərbaycana həmrəylik və dəstək göstərdiyini xatırladıb.

Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıç bildirib ki, Türkiyə Böyük Millət Məclisində bu zəfəri, bu liderliyi, bölgənin tarixində dönüş nöqtəsi olan bu mübarizəni dəstəkləyən dörd siyasi partiyanın, Türkiyə Böyük Millət Məclisi bu barədə bəyanat qəbul etdi, – təmsilçiləri olaraq buradayıq.



Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli sərəncamları ilə Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə, 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə bir qrup şəxs təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasının ictimai həyatında fərqlənən qadınlar da vardır.

**Quliyeva Ülkər Hüseyn qızı**

"Tərəqqi" medalı ilə,

**Firudinbəyova Əfruz Şükür qızı**

"Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif edilmişlər.

## Naxçıvan Dövlət Universitetinin kollektivi sərgi-satışla tanış olub



*Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun tədbirlər planına uyğun olaraq muxtar respublikanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə təşkil olunan məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış davam edir. Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələri də sərgi-satışda sərgilənən sənətkarlıq nümunələrinə baxıblar.*

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova sərgi haqqında məlumat verərək qeyd edib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün uğurla həyata keçirilən dövlət qadın siyasəti muxtar respublikada da layiqincə icra olunur. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası müddətində komitə tərəfindən az-təminatlı ailənin üzvü və sağlamlıq imkanları məhdud qadınların peşə kurslarına cəlb olunması üçün müvafiq tədbirlər görülür. Beş ildən artıqdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun tədbirlər planına əsasən məhdud fiziki imkanlı şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil olunur. Belə sərgi-satışların təşkilində məqsəd qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, ailə dəyərlərimizi, çoxəsrlik adət-ənənələrimizi gənclərə aşılamaq, milli dəyərlərimizi əl işlərimizi yaşatmaqdır.

Diqqətə çatdırılıb ki, sərgi-satışda rayon (şəhər) İcra hakimiyyətlərinin təşkilatçılığı ilə istedadlı qadınlarımızın, o cümlədən kəndlərimizdə yaşayan evdar qadınlarımızın, həmçinin Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq mərkəzlərinin dərnək rəhbərləri və üzvlərinin, məktəb və məktəbəqədər müəssisələrin, orta ixtisas və ali təhsil müəssisələrinin, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınlar və rəssamların, məhkum qadınların, eləcə də sərmayə kapitalı verilən qadınların da əl işləri sərgilənir. Vurğulanıb ki, növbəti sərgi-satışda sərmayə kapitalı verilən 26 qadının əl işi sərgilənir.

Qeyd edilib ki, sərgi-satışa Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 424 qadının 6488 əl işi, 6 sağlamlıq imkanları məhdud kişinin 25 sənətkarlıq nümunəsi olmaqla, ümumilikdə, 430 şəxsin 6508 əl işi cəlb olunub. Toplanılan əl işləri arasında Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzi 76 müəllim və tələbə ilə birgə 210 əsərlə sərgi-satışda uğurla təmsil olunur. İlk günlərdən etibarən toxuma, tikmə, xalçaçılıq, dekorativ-tətbiqi sənət nümunələrinin sərgiləndiyi əsərlər böyük maraqla qarşılanır.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbov satış-sərgi ilə tanış olarkən qeyd edib ki, muxtar respublikada yaradılan mədəni mühit və münbit şərait qadınların zəngin potensialının üzə çıxarılması və dəyərləndirilməsi üçün əlverişli zəmin yaradır. Belə tədbirlərin təşkili qadınların cəmiyyətdə layiqli yer tutmaları və çəkdikləri zəhmətin dəyərləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Prorektor sərgidə nümayiş olunan əsərləri yüksək qiymətləndirib və yaradıcı qadınlara uğurlar arzulayıb. Könüllü kimi fəaliyyət göstərən Aytac Əliyeva yaradılan şərait üçün minnətdarlıq ifadə edib. Seymur Talıbov və universitetin kollektivi çox sayda hədiyyəlik əl işləri alıblar.

**"Şərq qapısı"**

## Mart ayı üçün əmək pensiyalarının maliyyələşdirilməsi təmin edilmişdir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada əhalinin sosial müdafiəsi ilə bağlı davamlı tədbirlər həyata keçirilir. Əmək pensiyalarının və məcburi dövlət sosial sığortahaqqı hesabına müavinətlərin hər ay vaxtlı-vaxtında maliyyələşdirilməsi də diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu fəaliyyət sahələrinə uyğun olaraq qarşıya qoyulan vəzifələri, o cümlədən muxtar respublikada əmək pensiyalarının vaxtında maliyyələşdirilməsini təmin edir. Belə ki, əvvəlki aylarda olduğu kimi, mart ayında da əhaliyə pensiyaların ödənilməsi vaxtından əvvəl başa çatdırılmışdır. Tələb olunan vəsait fondun xəzinə hesabından pensiyaçıların plastik bankomat kartlarına köçürülmüş, istəklərinə uyğun olaraq kənd məntəqələrində yaşayan pensiyaçılara isə poçt bölmələri vasitəsilə ödənilmişdir.

Sığorta-pensiya sistemində əsaslı dəyişikliklərin həyata keçirilməsi tədbirləri çərçivəsində pensiyaların operativ ödənilməsi xüsusi əhəmiyyət daşıyır. Bu sahədə pensiyaların plastik kartlarla bankomatlar vasitəsilə ödənilməsi ilə bərabər, yaşayış yerlərində poçt bölmələri vasitəsilə çatdırılması əmək pensiyaçılarına göstərilən xidmətin daha bir nümunəsidir.

Qeyd edək ki, hazırda məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərin də vaxtında maliyyələşdirilməsi üçün müvafiq işlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bundan sonra da vəzifələrin icrasını operativ qaydada həyata keçirməyə çalışacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Muxtar respublikada yaz suvarma mövsümünə hazırlıq işləri aparılır



Muxtar respublikada torpaq və su ehtiyatlarının qorunması və onun məhsuldarlığının artırılması, suvarılan sahələrin genişləndirilməsi, su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması istiqamətində görülən işlərin əhatə dairəsi genişləndirilir. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları tərəfindən fevral ayında 6,4 kilometr yeni suvarma, 170 metr qapalı drenaj xətti çəkilmiş, 800 metr yeni açıq drenaj kanalı qazılmış, 5 kilometr içməli su, 1,5 kilometr təzyiqli boru xətti təmir edilmiş, 41 kilometr beton və torpaq kanal, 18 kilometr ara arxlar, 4 kilometr kollektor lildən təmizlənmişdir. Şoranlaşmanın qarşısını almaq məqsədilə görülən işlər hesabına 36,4 hektar sahənin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Ötən ay Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 4 kilometr suvarma xətti çəkilmiş, 18 hovuz və hidrant quraşdırılmışdır.

Muxtar respublikada əhalinin içməli su təminatının yaxşılaşdırılması üçün mövcud xətlərdə təmir-bərpa işlərinin aparılması, yeni içməli su xətlərinin quraşdırılması davam etdirilmişdir. Həmçinin subartezian quyularının və kəhrizlərin istismara yararlılığı diqqətdə saxlanılmış, 3 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmiş, 40 subartezian quyusu təmir olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Onlayn təlim keçirilib

*"Naxçıvan" Universiteti, Azərbaycan Milli Erasmus+ ofisi ilə birgə "Erasmus+" proqramı "TAM" (Texniki Dəstək Missiyası) layihəsi çərçivəsində "Azərbaycan ali təhsil müəssisələrində elektron təhsilin tətbiqi" adlı onlayn təlim təşkil edib.*

İki gün keçirilən təlimi giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açıb. O, müasir innovasiyaların təhsildə tətbiqinin önəmindən danışıb. Bildirib ki, xüsusən indiki pandemiya dövründə bu prosesin əhəmiyyətini daha aydın görürük. Buna görə də "Naxçıvan" Universiteti təhsildə innovasiyaların tətbiqi üçün mühüm addımlar atır. Təlimin keçirilməsini də bu addımlardan biri kimi dəyərləndirmək olar.

Sonra Azərbaycan Milli Erasmus+ ofisinin rəhbəri Pərviz Bağırov "TAM" layihəsi haqqında məlumat verib. Təlimçi, "Berinfor" Agentliyinin eksperti Felix Seyfarth "İdeyadan filmə – digital bacarıqların universitet kurikulumuna inteqrasiyası" mövzusunda təlim keçib. Günün ikinci yarısında isə "2020-ci ildə kursların onlayn təhsilə uyğun olaraq yazılması" mövzusunda iştirakçılara məlumat verib.

Təlimin ikinci günü "Təşkilati perspektiv yanaşmada digital təhsil və öyrənmənin rolu" mövzusunda iştirakçıları məlumatlandıran Felix Seyfarth, günün ikinci yarısında "Digital formatda yeni pedaqoji yanaşmanın formalaşdırılması"ndan danışıb.

Təlimin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Dövlət proqramı icra olunur

# Baytarlıq xidməti inkişaf etdirilir

*İnsan sağlamlığı ölkəmizdə, eləcə də muxtar respublikamızda dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Sağlamlığın qorunması tibbi-profilaktik, müalicə və maarifləndirmə tədbirləri ilə yanaşı, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasından da əhəmiyyətli dərəcədə asılıdır. İnsanın gündəlik ərzaq tələbatının mühüm bir hissəsini ət və süd məhsulları təşkil edir. Əhalinin təhlükəsiz heyvandarlıq məhsulları ilə təmin edilməsi üçün baytarlıq təbabətinin inkişafı, bu sahədə fəaliyyətin günün tələbləri səviyyəsində qurulması həyati əhəmiyyət kəsb edən məsələdir. Heyvanlar arasında xəstəliklərin qarşısının alınması isə baytarlıq xidmətinin təşkili ilə birbaşa bağlıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Baytarlıq xidmətinin təşkili fədakarlıq və zəhmət tələb edir. Muxtar respublikada epizootik tədbirlərin vaxtında həyata keçirilməsinin nəticəsidir ki, heyvanlar arasında infeksion xəstəlik yoxdur".***

Görülən işlərin kompleks xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın müstəsna rolu vardır. Proqramda nəzərdə tutulan tapşırıqların icrası baytarlıq xidmətinin maddi-texniki bazasının gücləndirilməsini təmin edir ki, bu da həyata keçirilən tədbirlərin effektivlik dərəcəsini artıran başlıca faktordur. 2020-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə keçirilən tədbirlərdə Şərur rayonunun Muğancıq-Mehrab, Məmmədsabir, Qarabürc, Ordubad rayonunun Vənənd, Culfa rayonunun Camaldın və Babək rayonunun Nəcəfalidizə kənd mərkəzlərində baytarlıq məntəqələri istifadəyə verilmişdir. Dövlət proqramının təsdiq olunduğu ərəfədə 29 sahə baytar məntəqəsi ilə yanaşı, baytarlıq laboratoriyasını və Baytar sanitar ekspertiza laboratoriyasını əhatə edən Babək Rayon Baytarlıq İdarəsinin yeni binasının Ali Məclis Sədrinin iştirakı ilə istifadəyə verilməsi bu sahəyə göstərilən diqqətin mühüm təzahürü olmuşdur. Ümumilikdə, proqramın icrasına uyğun olaraq 2020-ci ildə muxtar respublikada mövcud olan baytarlıq laboratoriyalarından səmərəli istifadə diqqət mərkəzində saxlanılmışdır. Bu laboratoriyalarda bruselyoz xəstəliyinə görə 19 min 937 baş iribuynuzlu, 69 min 663 baş xırdabuynuzlu heyvandan, 27 min 960 baş qoçdan qan nümunələri götürülərək yoxlanılmışdır. Həmçinin diaqnostiki olaraq vərəm xəstəliyinə görə 3 min 954 baş iribuynuzlu heyvan, epididimitə görə 27 min 960 baş qoç, manqo xəstəliyinə görə 1731 baş təkdırnaqlıda müayinələr aparılmışdır. Bu dövrdə 3 min 816 heyvandan patoloji nümunələrin götürülərək yoxlanılması iti gedişli infeksion xəstəlik aşkar edilməməsi ilə nəticələnmişdir. Eyni zamanda proqramın icrasına uyğun olaraq askaridoza görə 31 min 964 baş quş, fassiolyoza görə 23 min 195 baş iribuynuzlu, 153 min 836 baş xırdabuynuzlu, diktiokaulyoza görə 23 min 195 baş iribuynuzlu, 153 min 836 baş xırdabuynuzlu, monezioza görə 153 min 836 baş xırdabuynuzlu, neaskaridioza görə 10 min 946 baş iribuynuzlu heyvandan nümunə götürülərək yoxlanılmış və təyinatı üzrə tədbirlər həyata keçirilmişdir.

Baytarlıq xidmətinin maddi-texniki bazasının gücləndirilməsi süni mayalanma sahəsində də yeni nailiyyətlərin əldə olunmasına imkan yaradır. Həyata keçirilən süni mayalanma tədbirlərinin əhəmiyyəti heyvanların cins tərkibinin kütləvi surətdə yaxşılaşmasına təkan verməsindədir. Mal-qaranın baş sayının çoxalması isə ət və süd məhsulları istehsalının intensiv xarakter almasına səbəb olur ki, bu da əhalinin ərzaq məhsulları ilə təmin olunması sahəsində fəaliyyət imkanlarını artırır. Dövlət proqramının icrası məqsədilə 2020-ci ildə süni mayalanma tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzində olmuşdur. Ali Məclisin Sədri mayın 12-də Süni Mayalanma Mərkəzində görülən işlərlə maraqlanmış, yaradılan şəraitdən lazımi səviyyədə istifadə olunacağına və mərkəzin inkişafının təmin ediləcəyinə əminliyini bildirmişdir. Yeni yaradılan mərkəz muxtar respublikada süni mayalanma işinin genişlənməsinə, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına və heyvandarlığın inkişafına təkan verəcəkdir. Qeyd edilənlərlə yanaşı, iyunun 30-da Dövlət Baytarlıq Xidmətində Ali Məclis Sədrinin iştirakı ilə baytarlıq təbabəti sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə səyyar müşavirə keçirilmişdir. Müşavirədə xidmətə 1 "Fiat" markalı avtomobil, 5 yedəkli motosiklet və 5 dəst süni mayalanma ləvazimatı təqdim olunmuş, öz fəaliyyəti ilə fərqlənən bir qrup əməkdaşa hədiyyələr verilmişdir. Ümumilikdə, muxtar respublikada 2020-ci ildə 11 min 841 baş camış, inək və düyədə süni mayalanma aparılmış, 8 min 217 baş buzov və balaq doğulmuşdur. Doğulan buzov və balaqlar birkalanaraq qeydiyyata alınmışdır.

Baytarlıq xidməti üzrə inkişafı təmin edən faktorlar içərisində maddi-texniki bazanın gücləndirilməsi ilə yanaşı, sahibkarlara dövlət maliyyə dəstəyinin göstərilməsi də xüsusi yer tutur. Stimullaşdırıcı xarakter daşıyan bu tədbirlər sahibkarların sayının artması ilə yanaşı, mövcud sahibkarların fəaliyyət istiqamətlərinin şaxələndirilməsinə də imkan verir. 2020-ci ildə süni mayalanma nəticəsində doğulan buzov və balaqlara görə sahibkarlara 821 min 700 manat həcmində subsidiya ödənilmişdir. Eyni zamanda Dövlət proqramının icrası məqsədilə 3 min 943 sahibkara məxsus arı ailələri qeydiyyata alınaraq 984 min manat həcmində subsidiyanın ödənilməsi təmin olunmuşdur. Bütün bunlar heyvandarlıq-arıçılıq sahəsi üzrə iqtisadi fəallığın artırılmasına şərait yaratmışdır.

İnsan sağlamlığının qorunması və ekoloji təmizliyin təmin olunması üçün tələf olmuş heyvan cəsədlərinin vaxtında basdırılması xüsusi əhəmiyyət kəsb edir. Proqramda bu istiqamətdə nəzərdə tutulan tapşırığın icrası məqsədilə 2020-ci ildə Naxçıvan şəhərində 1, Babək rayonunda 4, Kəngərli rayonunda 3, Culfa rayonunda 8, Ordubad rayonunda 6, Şahbuz rayonunda 10, Sədərək rayonunda 1 kənddə quyular qazılmışdır. Ölmüş heyvanların cəsədləri baytar həkimlərin nəzarəti altında təlimata uyğun qaydada dərmanlanaraq zərərsizləşdirilmiş və basdırılmışdır. Bu tədbirlərin həyata keçirilməsində məqsəd tələf olmuş heyvan cəsədlərinin ətraf mühitə atılmasının qarşısını almaq olmuşdur.

Muxtar respublikada epizootik vəziyyətin sabit olmasında heyvanlar arasında xüsusi təhlükəli xəstəliklərə qarşı profilaktik tədbirlərin vaxtında və düzgün şəkildə aparılmasının müstəsna əhəmiyyəti vardır. Aparılan peyvəndləmə işləri yarana biləcək müxtəlif xəstəliklərin qarşısının qabaqcadan alınmasını təmin edir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi epizootik tədbirlər planına uyğun olaraq 2020-ci ildə qarayara xəstəliyinə qarşı 146 min 677 iribuynuzlu, 729 min 664 xırdabuynuzlu, 5 min 163 təkdırnaqlı, dabaq xəstəliyinə qarşı 235 min 709 iribuynuzlu, 596 min 794 xırdabuynuzlu, pasterelyoz xəstəliyinə qarşı 149 min 62 iribuynuzlu, 192 min 257 quş, nyukasl xəstəliyinə qarşı "H" ştampı ilə 598 min 249 quş, la-sota ştampı ilə 199 min 409 cücədə, quduzluq xəstəliyinə qarşı 3 min 253 itdə peyvəndləmə tədbirləri həyata keçirilmişdir. Həmçinin emkar xəstəliyinə qarşı 152 min 105, nodulyar dermatitə qarşı 82 min 504, dermatofitoz xəstəliyinə qarşı 9 min 899, aueski xəstəliyinə qarşı 48 min 286, leptospiroza qarşı 19 min 835 iribuynuzlu, bradzota qarşı 181 min 558, çiçəyə qarşı 270 min 382, bruselyoza qarşı Rev-1 vaksini ilə 216 min 135 xırdabuynuzlu heyvanda peyvəndləmə aparılmışdır. Bütün bunlarla yanaşı, profilaktik məqsədlə 7 min 251 obyekt üzrə 1 milyon 742 min 29 kvadratmetr sahədə dezinfeksiya tədbirlərinin aparılması təmin olunmuşdur. Həyata keçirilən peyvəndləmə işlərini yerində yoxlamaq məqsədilə 27 reyd keçirilmişdir.

Heyvanların bol və keyfiyyətli qida maddələri ilə zəngin yemlərlə yemləndirilməsi heyvandarlığın məhsuldar genetik potensial inkişafını təmin etmiş olur. Yemlərin və yem əlavələrinin təhlükəsiz və keyfiyyətli olması isə heyvan xəstəliklərinin qarşısının alınmasında xüsusi önəm kəsb edir. Dövlət proqramında müəyyən edilən tapşırığın icrası məqsədilə 2020-ci ildə baytarlıq preparatlarının, yemlərin və yem əlavələrinin, biostimulyatorların və hormonların təhlükəsizliyinə və keyfiyyətinə nəzarət daha da artırılmışdır. Qeyd olunan malların idxalı zamanı xarici baytarlıq sertifikatları tələb olunmuşdur. Həmçinin muxtar respublikada fəaliyyət göstərən baytarlıq əczaxanalarında Dövlət Baytarlıq Xidmətinin əməkdaşları tərəfindən 11, Naxçıvan Şəhər Baytarlıq İdarəsinin əməkdaşları tərəfindən 10, Şərur Rayon Baytarlıq İdarəsinin əməkdaşları tərəfindən 12, Ordubad Rayon Baytarlıq İdarəsinin əməkdaşları tərəfindən 8, Babək Rayon Baytarlıq İdarəsinin əməkdaşları tərəfindən 4, Culfa Rayon Baytarlıq İdarəsinin əməkdaşları tərəfindən 2 olmaqla, ümumilikdə, 47 reyd keçirilmişdir.

Mövcud baytarlıq əczaxanalarının fəaliyyətini davam etdirməsi ilə yanaşı, Dövlət proqramının icrası məqsədilə yeni əczaxanaların yaradılması da diqqətdə saxlanılmışdır. 2020-ci ildə Babək şəhəri, Nehrəm qəsəbəsi və Culfa şəhərində heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanalar fəaliyyətə başlamışdır. Görülən işlər baytarlıq xidmətinin səmərəliliyinin artırılmasına xidmət etmişdir.

Heyvanların yaylaq şəraitində epizootik durumunun araşdırılması, profilaktik peyvəndlənməsi, müşahidə olunan xəstəliklərə qarşı tədbirlərin, oba və yataq yerlərində, sərhəd-yaşayış məntəqələrində dezinfeksiya, dezinseksiya və dezakarizasiya işlərinin həyata keçirilməsi məqsədilə "səyyar baytarlıq xidməti" təşkil olunmuşdur. Bu dövrdə Şərur rayonunun Günnüt, Ordubad rayonunun Saqqarsu, Xələcli, Göygöl, Culfa rayonunun Dəmirli, Gədik, Xəzinədərə, Şahbuz rayonunun Gömür dağı, Kükü dağı, Batabat, Qanlıgöl, Keçəldağ yaylaqlarında sahibkarlarla görüşlər keçirilmişdir. Dövlət proqramının icrasına uyğun olaraq 2020-ci ildə aparılan dezinfeksiya işləri adıçəkilən yaylaqları da əhatə etmişdir.








Təbii fəlakətlərdən sığortalanma və risksiz istehsalın təmin edilməsi kənd təsərrüfatının inkişafını şərtləndirən amillərdir. Aqrar sahədə istehsalın davamlılığını təmin etməyin ən önəmli ünsürlərindən biri sığorta hesab olunur. Dövlət proqramında da heyvandarlıqda sığorta işinin təşkili ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Bu istiqamətdə 2020-ci ildə 2 min 426 sığorta müqaviləsi bağlanmışdır.

İstənilən sosial-iqtisadi sahədə inkişafı təmin etməyin başlıca yollarından biri də ixtisaslı kadr hazırlığının təşkil olunmasıdır. Muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrin praktik vərdişlərinin artırılması bu sahədə peşəkar kadr potensialının formalaşdırılmasına xidmət edir. Proqramın icrasına uyğun olaraq 2020-ci ildə Dövlət Baytarlıq Xidməti tərəfindən müvafiq ixtisas üzrə Naxçıvan Dövlət Universitetində təhsil alan tələbələrlə 8, Naxçıvan Dövlət Texniki Kollecində təhsil alan tələbələrlə 14 görüş keçirilmişdir. Bütün bunlarla yanaşı, tələbələrin Süni Mayalanma Mərkəzində 2 dəfə təcrübə keçmələri təmin olunmuşdur.

*Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası qarşıdakı illərdə də əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunması sahəsində yeni uğurların qazanılmasına şərait yaradacaqdır.*

**"Şərq qapısı"**

# Kənd təsərrüfatı sahəsində maarifləndirmə işləri diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fevral ayında da kənd təsərrüfatının müxtəlif sahələri üzrə bir sıra işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"nın müvafiq bəndlərinin icrası məqsədilə nazirliyin əməkdaşları Şərur, Babək, Kəngərli və Sədərək rayonlarında torpaq mülkiyyətçiləri və sahibkarların iştirakı ilə seminar-müşavirələr keçiriblər.

Mütəxəssislər tərəfindən ötən ay "Taxıl sahələrinə yemləmə gübrələrinin verilməsi və torpaqların münbitliyinin artırılması yolları", "Taxıl sahələrinə yemləmə gübrələrinin verilməsinin optimal müddətləri" və "Kartof bitkisinin optimal müddətdə əkini və ona qulluq qaydaları" mövzularında maarifləndirici tədbirlər təşkil olunub.

Ay ərzində nazirliyə daxil olan meyvə bağları və üzümlüklərdə yaz dövrü həyata keçiriləcək tədbirlərlə bağlı 12, taxıllara yemləmə gübrələrinin verilməsi ilə bağlı 21, ting əkini ilə bağlı 36, kartof əkini ilə bağlı 9, dənli-paxlalı bitkilərin əkini ilə bağlı 7 torpaq mülkiyyətçisinin müraciətləri əsasında onlara lazımi tövsiyələr verilməklə əməli köməkliklər göstərilib.

Cari ildə yaz əkinlərinin optimal müddətdə başa çatdırılması üçün rayonlarda yaz əkinlərində iştirak edəcək texnikaların texniki vəziyyəti daim nəzarətdə saxlanılaraq texnika sahibləri ilə fərdi söhbətlər aparılıb. "Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsi tərəfindən mülkiyyətçilərin təqdim etdiyi 8 torpaq nümunəsi analiz olunaraq onlara yazılı məlumat verilib. Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Torpaqşünaslıq və aqrokimya ixtisasının tələbələrinə torpaq analizləri və onların aparılması qaydaları haqqında təcrübə dərsləri keçilib. İstehsalat təcrübəsinə başlayan Azərbaycan Dövlət Aqrar Universitetinin Aqronomluq fakültəsinin 1, Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin 16 tələbəsinə istehsal prosesinin təşkili, texnika və texnoloji avadanlıqlardan istifadə qaydaları, aqrotexniki becərmə üsulları əyani olaraq göstərilib.

Ay ərzində Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin laboratoriyasına toxumçuluq təsərrüfatları və fermerlər tərəfindən gətirilən toxumlar analizdən keçirilib, nəticəsi analiz aktı formasında onlara təqdim edilib.

Heyvandarlıqda faraş doğulan balalara zoobaytar qaydalarına uyğun qulluq edilməsi, heyvanlar arasında baytarlıq tədbirlərinin vaxtında aparılmasının və qış otlaqlarından səmərəli istifadə olunmasının əhəmiyyəti ilə bağlı sahibkarlarla maarifləndirici müşavirələr, "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı arıxanalarda yaz aylarında aparılacaq tədbirlərlə əlaqədar arıçılarla görüşlər keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***



10 mart Milli Teatr Günüdür

## Naxçıvan teatrı zəngin ənənələrə malikdir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən hər il martın 10-u ölkəmizdə “Milli Teatr Günü” kimi qeyd edilir.***

1873-cü il mart ayında Bakıda Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” komediyasının səhnələşdirilməsi Azərbaycan peşəkar milli teatrının əsası qoyulmuşdur. Bundan 10 il sonra – 1883-cü il mayın 11-də isə dövrünün mütərəqqi ziyalısı olan Hacı Nəcəf Zeynalovun Naxçıvanın məşhur “Zaviyə” məhəlləsindəki evində Mirzə Fətəli Axundovun “Müsyö Jordan və Dərviş Məstəli şah” komediyası səhnələşdirilməklə Naxçıvan teatrının əsası qoyulmuş, ötən dövrdə teatr şərəfli inkişaf yolu keçmişdir. Naxçıvan teatrının salnaməsini vərəqlədikcə fədakar və mübariz insanların xatirəsi gözlərimiz önündə canlanır. Bu məfkurə və əməl dostlarının başında duranlar – Eynəli bəy Sultanov və Cəlil Məmmədquluzadə dram əsərləri yazmaqla bərabər, həm də rejissorluq edir, teatr təşkilatçılığı ilə məşğul olur, teatrın inkişafı üçün zamanın sərt sınaqlarına qatlaşırdılar.



XIX əsrin əvvəllərində Bakıdan Naxçıvana gələn Azərbaycan teatrının qüdrətli sənətkarlarının Naxçıvan teatrının aktyorları ilə birlikdə tamaşa göstərməsi, öz həmkarlarına mənəvi dəstək verməsi, onların peşəkarlıq səviyyəsinin yüksəlməsinə təsir etməsi, dərin məzmunlu əsərlərin tamaşaya qoyulması ilə yanaşı, həm də milli teatr tariximizdə əməl və məfkurə dostluğunun, sənət fədailiyinin ən gözəl nümunələri idi. Bütün bunlar Naxçıvan teatrına öz repertuarını zənginləşdirmək imkanı qazandırmışdı. Naxçıvan teatrı Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı, İslam Səfərli kimi sənətkarların əsərlərinə müraciət edərək püxtələşmişdir. Həmçinin teatrın kollektivi müxtəlif illərdə Vilyam Şekspir, Lope de Veqa, Qothold Lessinq, Henrik İbsen, Əziz Nesin, Nazim Hikmət, Çingiz Aytmatovun da əsərlərini tamaşaya qoymuş, teatrsevərləri dünya klassiklərinin yaradıcılığı ilə tanış etmişdir.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Naxçıvan teatrı köklü, əsaslı bir teatrdır. Yaxın Şərqin ən qocaman sənət ocaqlarından biri olan Naxçıvan teatrı böyük yaradıcılıq yolu keçmişdir. Teatr bu ənənəni bu gün də qoruyub saxlayır”.***

Görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə milli teatrımız əsl inkişaf və intibaha qovuşmuş, maddi-texniki bazası gücləndirilmiş, peşəkar aktyor və rejissor kollektivi formalaşmışdır. Müstəqillik illərində isə ümummilli liderimizin rəhbərliyi ilə səhnə sənətimiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, bu sahədə böyük uğurlar qazanılmışdır. Həmin dövrdən başlayaraq teatrlara diqqət və qayğı artırılmış, yazıçı, aktyor və rejissorların yaradıcılıq şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, onların əməyi qiymətləndirilmişdir. Teatr kollektivlərinin əməkhaqları artırılmış, aktyorların, rejissorların, dramaturqların yubileyləri geniş qeyd edilmiş, Azərbaycan teatrının beynəlxalq əlaqələri genişlənmişdir.

Teatrlara diqqət və qayğı bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər bu sahədə mühüm islahatlar həyata keçirilmiş, teatr binaları yenidən qurulmuşdur. 2006-cı ildə qəbul olunmuş “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, ölkə başçısının “Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında” 2007-ci il 19 fevral tarixli Sərəncamı, 2009-cu ildə təsdiq edilmiş “Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı” milli teatrımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, kollektivlərin yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından mühüm dövlət sənədləridir.



Naxçıvan Muxtar Respublikasında da teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, teatr binalarının hamısı yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. Bu gün muxtar respublikada fəaliyyət göstərən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı və Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, asudə vaxtının mənalı təşkilində əhəmiyyətli rol oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov qədim diyarımızda teatr ənənələrinin inkişafına yüksək qiymət verərək demişdir: ***“Naxçıvan teatrı fəaliyyət göstərdiyi bütün dövrlərdə mütərəqqi ideyaları dəstəkləmiş, günün aktual məsələlərinə nüfuz etmiş, xalqın milli oyanışına çalışmışdır”.***

Zəngin tarixi inkişaf dövrü keçmiş Naxçıvan teatrının müstəqillik illərində yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənmiş, kollektiv milli dəyərlərimizin peşəkar təbliğatçısına çevrilmişdir. Bu illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrı Türkiyə Respublikasının Ankara, İstanbul, Bursa, Ərzurum, İğdır, Dənizli, Tarsus, İran İslam Respublikasının Təbriz, Maku, Urmiya şəhərlərində olmuş, göstərdiyi tamaşalarla dost və qonşu ölkələrin teatrsevərlərinin rəğbətini qazanmışdır. Naxçıvan teatrının Bakıda və Azərbaycanın digər rayonlarında da göstərdiyi tamaşalar maraqla qarşılanmışdır. Teatrımız repertuar zənginliyini daim diqqət mərkəzində saxlayır, klassik və çağdaş dramaturgiyamızın dəyərli nümunələrindən, dünya klassiklərinin əsərlərindən tamaşalar hazırlayır. Hazırda teatrda dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar ölkədə elan edilmiş “Nizami Gəncəvi ili” münasibətilə dahi şairin “Sirlər xəzinəsi” poeması əsasında hazırlanan eyniadlı tamaşanın məşqləri aparılır.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının son onilliklərdə tamaşaya qoyduğu dramlar üslub, struktur və janr müxtəlifliyi ilə seçilir. “Atabəylər”, “Pompeyin Qafqaza yürüşü”, “Hökmdar və qızı”, “Nadir şah”, “Qönçəbəyimin nəğməsi”, “Mirzə Cəlil taleyi”, “Yəhya bəy Dilqəm”, “Araz sahilində doğan günəş”, “Ağa Məhəmməd şah Qacar”, “Mirzə Fətəli”, “Əlincə qalası”, “Koroğlunun Çənlibelə qayıdışı”, “Qurtuluş dastanı”, “Ah Paris, Paris!..”, “Mənim ərim dəlidir”, “Dəlixanadan dəli qaçıb”, “Kuklalar evi”, “Arılar arasında” kimi üslub, struktur, janr müxtəlifliyi ilə seçilən tamaşalar teatrın axtarışlarının düzgün istiqamətdə inkişaf etdiyini göstərir.

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı da fəaliyyəti boyunca yüksək qayğı ilə əhatə olunub. 2004-cü ildə müasir bina ilə təmin olunan kukla teatrının qonşu Türkiyə və İran İslam respublikalarına səfərləri beynəlxalq mədəni əlaqələrin qurulmasında əhəmiyyətli rol oynayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı müxtəlif illərdə hazırladığı tamaşalarla balacaların qəlbinə yol tapmağı bacarıb. Bu gün muxtar respublikanın şəhər və rayonlarında xalq teatrları da uğurla fəaliyyət göstərir. Xalq teatrlarının “Alova çevrilən qəzəb”, “Sevməsəm, ölləm”, “Öldürsənə, can-ciyər”, “Arzum çin oldu”, “Sadığın toyu” kimi son tamaşaları ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Rayon mərkəzlərində müasir standartlara uyğun tikilərək istifadəyə verilən mədəniyyət saraylarında teatr kollektivləri üçün hər cür şəraitin yaradılması xalq teatrlarının fəaliyyətinin daha səmərəli təşkilinə səbəb olub.

Son illər Naxçıvan teatrının yarandığı gündən bu günə kimi keçdiyi inkişaf yolunun tədqiqi ilə də bağlı bir sıra uğurlu işlər həyata keçirilib, monoqrafiya və kitablar nəşr olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə nəşr olunan “Naxçıvan teatrının salnaməsi” bu baxımdan yüksək qiymətə layiqdir. Kitabda ilk dəfə olaraq Naxçıvan teatrı ilə bağlı çoxsaylı mühüm elmi əhəmiyyətə malik sənədlər, fotoşəkillər və digər məlumatlar öz əksini tapıb.

Teatr o zaman davamlı inkişaf edir ki, orada gənc aktyorlar nəsli yetişir. Muxtar respublikada bu sahədə də mühüm addımlar atılıb, Naxçıvan Dövlət Universitetində Aktyorluq sənəti ixtisası yaradılıb. Bunun nəticəsidir ki, hər il istər dövlət, istərsə də xalq teatrlarının heyətinə onlarla gənc qatılır, yaratdıqları obrazlarla tamaşaçı qəlbinə yol tapmaqla yanaşı, Naxçıvan teatrının gələcək fəaliyyətinə töhfələr verirlər. Muxtar respublikada teatr sənətinə könül verənlərin əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, yaradıcı insanlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülmüşlər.

Xalqımızın zəngin mədəniyyətini yaşatmaq, gənclərin vətənpərvərlik duyğularını gücləndirmək, yüksək estetik-mənəvi təsirə malik olan əsərləri səhnəyə gətirmək bu gün teatrlarımızın qarşısında duran əsas vəzifədir. Cəmiyyətimizin, xalqımızın milli dəyərlər ruhunda, mənəvi kamillik işığında inkişafına xidmət edən teatr sənətimiz milli sərvətimizdir. Ötən illərdə olduğu kimi, bundan sonra da Naxçıvan teatrları milli dəyərləri qorumaq və təbliğ etmək, tariximizin şərəfli səhifələrini yaşatmaq missiyasını layiqincə yerinə yetirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin***
***mətbuat xidməti***

*10 mart Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaradılması günüdür*

## Xeyirxahlıq ünvanı

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 7 aprel tarixli Sərəncamına əsasən hər il martın 10-u Azərbaycan Respublikasında “Qızıl Aypara Günü” kimi qeyd olunur.***

Özündə xeyirxahlıq və humanizmi ehtiva edən Qızıl Aypara Cəmiyyəti ölkəmizdə 1920-ci il mart ayının 10-da Azərbaycan Respublikasının Müdafiə naziri, general-leytenant Əliağa Şıxlınskinin təşəbbüsü ilə təsis edilmişdir. Yarandığı vaxtdan qurumun başlıca məqsədi xeyirxah ideyalar olub, kimsəsizlərə, fəlakətlə üz-üzə dayananlara, ehtiyacı olanlara kömək göstərilib. Lakin 1920-ci ilin aprelində Azərbaycanda sovet hökuməti qurulduqdan sonra Qızıl Aypara Cəmiyyətinin də fəaliyyəti dayandırılıb. 1923-cü ildə yenidən həyata vəsiqə alan cəmiyyət 1991-ci ilə kimi humanist prinsipləri həyata keçirməklə özünəməxsus fəaliyyət göstərmişdir.

Ölkəmiz müstəqillik əldə etdikdən, ümummilli liderimiz Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra isə bütün sahələrdə olduğu kimi, Azərbaycan Qızıl Aypara Cəmiyyətinə də diqqət və qayğı artırılmışdır. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə bu cəmiyyət ölkəmizdə yeganə rəsmi humanitar təşkilat kimi tanınmışdır. 1995-ci il noyabr ayının 27-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının tam bərabərhüquqlu, daimi, 169-cu üzvü qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 31 yanvar tarixli “Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında”, 2007-ci il 22 may tarixli “Azərbaycan Qızıl Aypara Cəmiyyətində çalışan işçilərin əməkhaqlarının dövlət büdcəsindən maliyyələşdirilməsi haqqında”, 2008-ci il 7 aprel tarixli “Qızıl Aypara gününün təsis edilməsi haqqında” sərəncamları cəmiyyətin fəaliyyətinin dövlətimizin diqqətində olduğunun göstəricisidir. Belə ki, həmin sərəncamlarla Qızıl Aypara Cəmiyyətinin maliyyə və maddi-texniki bazasının yaxşılaşdırılması, icra hakimiyyəti və özünüidarəetmə orqanlarının cəmiyyətin yerli təşkilatlarının sosial, tibbi sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə köməklik göstərmələri təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi də daim dövlət qayğısı əhatəsindədir. 2008-ci il yanvarın 10-da komitə yeni inzibati bina ilə təmin olunmuş, maddi-texniki baza yaxşılaşdırılmış, xidməti və yük avtomobilləri verilmiş, əməkdaşların səmərəli fəaliyyətinə hərtərəfli şərait yaradılmışdır. Son illər kollektivin sosial təminatının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 1 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi işçilərinin əməkhaqları 25, 2010-cu il 1 sentyabr və 2011-ci il 1 dekabr tarixli sərəncamlara əsasən isə 10 faiz artırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının nəticəsidir ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi işçilərinin əməkhaqları 10 faiz, 2016-cı ilin fevral ayında isə əlavə 10 faiz artırılmışdır. 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinə yeni xidməti minik avtomobili verilmişdir. 2019-cu ilin sentyabr ayında komitə işçilərinin əməkhaqları əlavə olaraq artırılmışdır.

Tərkibində 1 şəhər, 7 rayon bölməsi fəaliyyət göstərən komitənin 580 ilk təşkilatı və 37000-dən artıq üzvü vardır. Hazırda komitə muxtar respublikamızda öz işini 4 şöbə əsasında qurur. Belə ki, Axtarış şöbəsi Stalin repressiyası, İkinci Dünya müharibəsi və miqrasiya zamanı itkin düşənləri axtarır, həmçinin də qaçqın və məcburi köçkünlər üçün lazımi sənədləri bərpa edir. Komitənin Gənclər və könüllülərlə iş şöbəsi gələcəyimiz olan gənclər arasında sağlamlığın təmin edilməsi məqsədilə idman, eləcə də gigiyena, təmizlik, təbiətin mühafizəsi kimi tədbirlərin təşkili ilə məşğul olur. Eyni zamanda yeniyetmə və gənclərə fövqəladə hallarda ilk tibbi yardımın göstərilməsinə dair məlumatlar verilir. XX əsrin vəbası adlandırılan QİÇS xəstəliyindən qorunmaq üçün onlar arasında maarifləndirici söhbətlər aparılır. Təşkilati iş şöbəsi isə muxtar respublikamızda fəaliyyət göstərən idarə və müəssisələrdə komitənin ilk təşkilatlarını yaradır və Qızıl Aypara hərəkatı haqqında seminar və treninqlər təşkil edir. Bununla yanaşı, komitənin şəhər və rayon bölmələrinin işinə nəzarəti də həyata keçirir. Digər şöbə isə fövqəladə hallarla bağlı əhali arasında bilikləri artırmaqla və bu sahədə müvafiq tədbirlər görməklə məşğul olur. Görülən işlərin nəticəsi olaraq 2017-ci ilin yanvar ayında fövqəladə hallara hazırlıq çərçivəsində Bakı şəhərindən hər biri beş nəfərin müvəqqəti yaşaması üçün nəzərdə tutulmuş 30 çadır komitəyə gətirilmişdir. 2020-ci ilin sentyabr ayında pandemiya ilə əlaqədar olaraq xüsusi qayğıya ehtiyacı olan ailələr üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən ayrılmış 320 qutu ərzaq məhsulları və 320 qutu gigiyenik dezinfeksiya ləvazimatları muxtar respublikaya gətirilmiş, şəhər və rayonlarda xüsusi qayğıya ehtiyacı olan 320 ailəyə paylanılmışdır.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin kollektivi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, xeyirxahlıq ünvanı kimi tanınan bu təşkilatın fəaliyyətini daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası***
***Qızıl Aypara Komitəsi***

Əfsanəyə dönən ömürlər

# Balaca kəndin böyük əfsanəsi

## Mərhəməti Qələbəyə səsləyən Vətən fəryadı

(Portret oçerk)

*Hər il olduğu kimi, 2004-cü il fevralın 26-sı televizor ekranlarında məşhur "Fəryad" filmi nümayiş olunur. Mərhəmət balacalıqdan Azərbaycan Televiziyasında yayımlanan bu filmi hər dəfə böyük həyəcanla izləsə də, gözləri heç vaxt hiddətdən bu qədər böyüməmişdi. Həmin il onun gördüyü kadrlar daha da dəhşətli, əzablı, daha da iztirablı gəlirdi ona. Film həmin film idi. Kadrlar da həmin kadr. Məsələ orasındadır ki, Mərhəmət həmin yaşda deyildi. Artıq böyümüşdü. Hər şeyin fərqində idi. Bu səhnələrə baxıb, gah Qarabağ torpağını işğal edən mənfur düşmənləri söyür, gah filmin baş qəhrəmanı igid İsmayılın (Ceyhun Mirzəyev) düşdüyü vəziyyətə acıyır, qəhərə boğulurdu. İçindən kəsilə-kəsilə qalırdı. Bax, beləcə, mərhəmətli bir gəncin ürəyinə qisas duyğusunu Qarabağ fəryadı salmışdı. Ekran qarşısında sarsıntı keçirdiyini görən Xatirə ana oğluna təskinlik verir, "üzülmə bala, düşmənə lənət. Gün gələcək sizin kimi qeyrətli oğullar böyüyüb qisasımızı yağı düşməndən alacaq". O gündən Mərhəmət Vətən, millət kəlmələrinin müqəddəsliyini dərindən duymuşdu. Seçdiyi yol Vətən naminə xilaskarlıq, yurd təəssübü, millət qayğısı, el qədri idi.*



*Adil Əhmədov (atası):* – Mərhəmət (divardakı şəklinə baxıb dərin köks ötürür) işgüzar oğul idi. Obaşdan oyanar, hər işi özü görərdi, qoçaqlığına, çevikliyinə yetişmək müşkül məsələ idi. Eh, dağı dağ üstünə qoyardı. Yorulmazdı işdən. Bir sözlə, zəhmətkeş idi. Hərbi xidmət zamanı ona verilən xasiyyətnaməni fəxrlə mənə uzadır, bu təriflər, xoş sözlər bir ata kimi məni indi də qürurlandırır. Hərbi xidməti başa vurduqdan sonra Mərhəmət hərbiyə yazılır, 6 il BTR sürücüsü kimi işləyir, son iki il idi ki, xüsusi təyinata götürülmüşdü. Bütün təlimlərdən üzüağ çıxmışdı.

*Qəmər Əhmədova (nənəsi):* Mərhəmət məni şəhid nənəsi etdi. O, adı kimi mərhəmətli oğul idi. Kiminsə qəlbinə dəyməyini görməmişdim. Mən özüm əvvəl Füzulinin, indi isə Cəbrayılın tərkibinə qatılan Quyğac kəndindən Cəlilkəndə gəlin gəlmişəm. Torpaqlarımız alınanda Mərhəmətin hələ iki yaşı vardı. Heç yuxuma da girməzdi ki, uzun illər keçəcək, kəndimiz haqqında nağıl danışdığım balaca nəvəm böyüyüb əfsanə olacaq. Ayağı o torpaqlara dəyəcək, torpaqlarımızın azad olunmasında o da canından keçəcək. Hələ təzəcə getmişdi, hamıyla danışandan sonra mənimlə də danışdı. Dedi, nə xəbər, ay nənəm? Hazırlaşırsan? Dedim, hara, ay oğul? Dedi, alacağıq dədə-baba yurdunu. Çamadanını yığ, gətirəcəm öz elinə-obana, neçə ildir, qəribəm deyirdin. Ta qəriblik getdi. Buraları görüb cavanlaşacaqsan. Necə sevindim, ay qızım. Dedim, oradakı bütün igid oğullarımızın əlindən öpürəm.

Bir qədər duruxur, sonra: – Qızım, qoy özümə gəlim, gedəcəyəm öz dədə-baba yurduma, Mərhəmətin, digər şəhidlərimizin qoxusunu alam torpağımdan, – deyir.

*Xatirə Əhmədova (anası):* – Mərhəmət Vətəni hər şeydən çox sevirdi. O, şəhid olmaq arzusunu həmişə elə qürurla dilə gətirirdi ki... Filankəsin ruhu şad olsun, şəhid oldu. Vətən sağ olsun! Ailəsi elə zirvəyə görə qürur duysun. Hər şeyi ürəkdən edərdi Mərhəmət. Vətəni də cani-könüldən sevərdi. Ürəyində həmişə Vətən nisgilini daşıyırdı. Deyirdi, Qarabağı görməsəm də, ona əlçatmaz sevgim var. Düşməndən qisas alsam, bu arzuma çatacağam. Kaş aparsınlar, gedək alaq o torpaqları, – deyirdi. Döyüşə gedəndə bizə bildirmədi. Orada olanda xəbər tutduq ki, döyüş bölgəsindədir. Mərhəmət oktyabrın 30-u igidliklə döyüşərək əfsanəyə çevrildi. Şəhid ucalığını gətirdi elimizə...

*Çinarə Əhmədova (həyat yoldaşı):* – Toy şəkillərinə baxırıq. "Harada tanış oldunuz?" sualıma bir qədər utancaqlıqla cavab verir: – Məktəbdən sevirdik bir-birimizi. Hələ 7-ci sinifdə oxuyurdum, mənə olan istəyini hiss edəndə. 21 yaşı olanda – hərbi xidməti başa vurduqdan sonra biz ailə qurduq. Ailə, yoldaş, uşaq qədri bilən idi. Heç vaxt xətrimə dəyməmişdi. İki oğlumuz oldu. (Uşaqları həyətdən səsləyir: – Bünyamin, İbrahim, gəlin bura). Çox can yandırırdı uşaqlara. Adlarını da özü qoymuşdu. Zəng edirdi, bəzən danışa bilirdi, bəzən də şəbəkə olmurdu. Axırıncı dəfə oktyabrın 20-si danışdıq. Mənə dedi ki, birdən bilmərsən, uşaqlara korluq verərsən ha... Pul olmasa belə, get dükana uşaqlara ürəkləri nə istəyir, nisyə yazdır, al. Tezliklə qayıdıb özüm pulunu ödəyəcəyəm... Bayrağımıza bükülüb qürurla gəldi...

*Səxavət Hüseynov (döyüşçü yoldaşı):* – 2019-cu ildə bütün təlimlərdə canla-başla iştirak edirdi. Çoxundan fəal, qoçaq, fədakar idi. Prezidentimizin müraciətlərində hər dəfə kəndlərimizin işğaldan azad olunma xəbərlərini eşitdikdə birinci Mərhəmət gəlirdi sevinə-sevinə: "Qardaş, bizim də nə vaxtsa, payımız olacaq bu qələbələrdə? Yoxsa elə televiziyalarda eşidəcəyik belə gözəl xəbərləri?" Elə fikri döyüşmək yanında idi. Oktyabrın ikinci ongünlüyündə, döyüşə qoşulanda Mərhəmətin sevinci yerə-göyə sığmırdı. O qədər qorxmaz idi ki, hamıdan qabaq atılırdı qaynar nöqtəyə. Ona o qədər etibar edirdim ki, yanımda olanda çox rahat olurdum. Növbəti ağır döyüşlərdən birində əməliyyat hələ sona çatmamışdı, baxdım ki, Mərhəmət ağır yaralanıb. Çəkdim dərəyə ki, xilas etmək mümkün olsun. Gödəkçəmi üzərinə örtdüm. Özüm də onu qorudum. Neçə saat yaralı vəziyyətdə qaldı. Həkim əlindən gələn tibbi yardımı etdi, lakin təəssüflə mənə vəziyyətinin çox ağır olduğunu bildirdi. Özümü toparlayıb Mərhəmətin yanına gəldim. Soruşdu ki, həkim sənə nə dedi? "Güclü oğlandır, yaşayacaq dedi" söyləməklə həqiqəti ondan gizlətdim. Gözləri güldü. Üzünü yudum. Çox heyif ki, səhərə yaxın Mərhəmət şəhid oldu. Balaca kəndinin böyük əfsanəsinə çevrildi. Mərhəmət Adil oğlu Əhmədov ölkə başçımız tərəfindən Vətən müharibəsi zamanı göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Şuşanın azad olunması" medalları ilə təltif olundu.

***P.S.*** *Mərhəmət, bu gün sizin kimi oğullarımızın hesabına Qarabağa həsr edilmiş yeni filmlər çəkilir. Bu kadrlarda hər birimizin uşaqlıqdan "Ögey ana" filmindən sevdiyi, vətənpərvər igid kimi "böyüyən" İsmayılın əsirlikdən olan görüntüləri yer almayacaq. Bu kadrlarda ermənilərin səsləndirdiyi "Şuşa, Ağdam, Laçın işğal olundu", – deyərək çalıb-oynadığı kadrlar da olmayacaq. Bu kadrlarda Xocalıda vəhşicəsinə öldürülən xocalıların narahat ruhlarının da epizodları görünməyəcək. Bu görüntülərdə Prezidentimizin iradəsi, uzaqgörənliyi, sizin kimi şücaətli igidlərimizin qəhrəmanlıqları, Xudayarın "Vətən yaxşıdır" ifası, torpaqlarımızın azadolunma xəbərləri öz əksini tapacaq. Bu filmin əsl ssenari müəllifləri isə Qələbə müjdəsini qızıl qanları ilə tarix səhifəmizə yazan sizlərsiniz.*

**Türkan HÜSEYNLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin fevral ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/S | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3434 | 254,1 | 254,1 | 100,0 |
| 2. | Şərur rayonu | 1975 | 140,5 | 140,5 | 100,0 |
| 3. | Babək rayonu | 1728 | 125,0 | 125,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 873 | 62,8 | 62,8 | 100,0 |
| 5. | Culfa rayonu | 785 | 56,9 | 56,9 | 100,0 |
| 6. | Kəngərli rayonu | 632 | 45,9 | 45,9 | 100,0 |
| 7. | Şahbuz rayonu | 396 | 28,6 | 28,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 164 | 11,7 | 11,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12163 | 1094,7 | 1096,8 | 100,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **22150** | **1820,2** | **1822,3** | **100,1** |

**Qeyd:** Fevral ayında texniki itki nəzərə alınmaqla daxil olan 22 milyon 150 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 820 min 200 manat olmuş, cəmi 1 milyon 822 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,1 faizini təşkil edir.

## Humanitar tibbi aksiya keçirilib

***Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.***

Ayda bir dəfə təşkil edilən növbəti aksiya Sədərək Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Aksiya üçün əvvəlcədən hazırlıq işləri görülüb, müayinə və müalicə olunacaq xəstələrin siyahısı hazırlanaraq xəstəxanaya dəvət olunublar.

Qeyd edək ki, səhiyyə xidmətlərinin səviyyəsini müasir tələblərə çatdırmaq, keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə muxtar respublikada ilk dəfə Sədərək rayonunda icbari tibbi sığorta tətbiq edilib. Tibbi sığortanın təşkili ilə əlaqədar rayon Mərkəzi Xəstəxanası kompüterlərlə təmin edilərək səhiyyə informasiya sistemi yaradılıb, ehtiyac olan tibbi avadanlıqlarla təchiz edilib. İcbari tibbi sığortanın tətbiqi bu səhiyyə müəssisəsini yeni inkişaf mərhələsinə çıxarıb.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadasının üzvləri bu səhiyyə müəssisəsində 50 nəfəri 120 tibbi müayinə ilə əhatə ediblər. Gün ərzində laborator təhlillər, elektrokardioqrafiya, ultrasəs müayinələri aparılıb, müvafiq təyinatlar verilib. Müayinələrin aparılmasında rentgenoloq, kardioloq, endokrinoloq, oftalmoloq, nevropatoloq, fizioterapiya, USM aparatı, laborant və digər ixtisas həkimləri iştirak ediblər.



Qaraağac kənd sakini Hüseynalı Cəfərov xəstəxanada rentgen müayinəsindən keçirilib. İki övladı isə ambulator tibbi müayinələrlə əhatə olunub. O, başqa yerlərə getmədən ərazidə yerləşən səhiyyə müəssisəsində müayinə olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

Naxçıvan Muxtar Respublika Xəstəxanası belə aksiyaları digər rayonlarda da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## "C" kateqoriyalı məşqçilik kursu başa çatıb

***Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə keçirilmiş məşqçilik kursunun üçüncü mərhələsi başa çatıb.***



Şərur Olimpiya İdman Kompleksində təşkil olunmuş təlimlərdə futbol üzrə Azərbaycan milli komandasının köməkçi məşqçisi Arif Əsədov, AFFA-nın Maarifləndirmə şöbəsinin təlimatçıları İlkin Hüseynov və İlham Əzizzadə iştirak ediblər.

Kursa muxtar respublikanın müxtəlif bölgələrindən 15 məşqçi qatılıb. Məşqçilərin gün ərzində 2 dəfə nəzəri və praktik məşğələləri təmin olunub. Onlardan praktik, şifahi və yazılı imtahan götürülüb.

Qeyd edək ki, imtahanların yekun nəticəsinə əsasən uğur qazanan iştirakçılara "C" kateqoriyalı məşqçi lisenziyası veriləcək.

Kursun yekununda milli komandamızın köməkçi məşqçisi ***Arif Əsədov***un fikirlərini öyrəndik: "Naxçıvana hər gəlişim mənim üçün xoş və sevindiricidir. Uzun illər öncə "Araz" komandasına qarşı futbolçu kimi meydanda olmuşam. Təəssüf ki, klub uzun müddət əsas liqadan kənarda qaldı. Buna rəğmən sevindirici məqam odur ki, klub yenidən formalaşdırılır və ən önəmlisi Naxçıvan futbolundakı əsaslı dəyişikliklərin nəticəsində planlı və strukturlu işlər görülür. Artıq AFFA ilə NFF arasındakı işgüzar əlaqələr davamlı xarakter alıb. Nəticədə, region futbolunun inkişafı baxımından intensiv addımlar atılır. İnanıram ki, birgə fəaliyyətimiz yaxın gələcəkdə öz bəhrəsini verəcək".



Muxtar respublikamızda uşaq futboluna böyük önəmin verildiyini deyən Arif Əsədov diqqətimizə onu da çatdırdı ki, bu, milli komandamız və ümumilikdə, futbolumuzun gələcəyi üçün olduqca vacib amildir. Düzdür, buna görə uzun illər gözləmək lazım gəlir. Amma əsas məsələ bu illər ərzində futbolçuların fiziki və taktiki inkişafına nail olmaqdır. Bunun üçün lazım olan maddi-texniki baza formalaşdırılmaqdadır. Eyni zamanda "C" kateqoriyalı məşqçilik kursu bu sahədəki məşqçilərin inkişafı və yeni kadrların hazırlanması baxımından əhəmiyyətlidir.

Məşqçilik kursu barədə düşüncələrinə gəlincə, gənc məşqçilər milli komandamızın köməkçi məşqçisinə xoş təəssürat bağışlayıb: "Peşəkar məşqçilik yolunda "C" kateqoriyası ilk pillə hesab olunur. İştirakçıların arasında futbol oynamış və ya futbol sahəsinə sonradan yönələn insanlar olur. Burada isə, demək olar ki, bütün iştirakçıların futbol praktikası var. Onların arasında futbolçu karyerasını yeni bitirən gənclərimizi də görürük. Üzərimizə düşən iş onların məşqçilik bacarıqlarını futbolun müasir tədris metodları vasitəsilə formalaşdırmaqdır. Buraya gəlişimlə həm də Naxçıvan Futbol Federasiyanın tamamlanmaqda olan yeni təlim-məşq kompleksi ilə yerində tanış olmaq imkanı əldə etdim. Ölkəmizdə belə müasir idman bazalarını görmək biz veteran idmançıları çox sevindirir. Kompleks futbolun müxtəlif sahələrinin inkişafı üçün kifayət qədər əlverişlidir. Xeyirli, uğurlu olmasını arzu edirəm".

**Ceyhun MƏMMƏDOV**

*İtmişdir*

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi, döngə 9, ev 8-də yaşayan Kərimov Feyzulla Xudakərim oğlunun adına olan 20 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 224